**Vergi orqanlarına işə qəbulla bağlı müsabiqənin ikinci mərhələsi**

2012-ci il dekabrın 11-dən Vergilər Nazirliyinin inzibati binasında vergi orqanlarında işə qəbulla bağlı test imtahanlarını uğurla başa vurmuş namizədlərlə müsahibələr başlamışdır. Müsahibələrin keçirilməsi üçün Vergilər Nazirliyi tərəfindən xüsusi Müsabiqə Komissiyası yaradılmışdır.

Müsahibə hər bir namizədlə fərdi qaydada aparılır. Müsahibə zamanı namizədin Azərbaycan Respublikasının Konstitusiyası, vergi qanunvericliyi, iqtisadi siyasətlə bağlı digər normativ-hüquqi aktların tətbiqi sahəsində bilik və bacarıqlarının, ümumi dünyagörüşünün səviyyəsi, vergi orqanlarında xidmətə yararlı və layiq olub-olmaması müəyyənləşdirilir.

Müsabiqənin nəticələri namizədin test imtahanlarında və müsahibədə topladığı keçid balları nəzərə alınmaqla müəyyən edilir. Eyni nəticələr əldə etmiş şəxslərdən xarici dil və kompüter bacarıqları səviyyəsi daha yüksək olanlara üstünlük verilir. Hər iki mərhələni uğurla başa vurmuş namizədlər Vergilər Nazirliyinin kadr ehtiyatına daxil edilir.

Xatırladaq ki, ərazi vergilər idarələri və rayon vergi şöbələri də daxil olmaqla, 34 vakant iş yerinə onlayn ərizə qəbulu Vergilər Nazirliyinin rəsmi internet səhifəsində həyata keçirilmişdir. Müsabiqədə iştirak etmək üçün 2367 nəfər qeydiyyatdan keçərək elektron ərizə ilə nazirliyə müraciət etmiş, 229 nəfərin  ərizəsi yaş hədləri və ya ixtisasları uyğun gəlmədiyindən qəbul olunmamış, 2138 nəfər müsabiqənin test imtahanı mərhələsində iştirak etmişdir. Vergi orqanlarına işə qəbulla bağlı 2 dekabr 2012-ci il tarixdə keçirilmiş, test imtahanlarında iştirak etmiş 1716 nəfərdən 541 nəfəri birinci mərhələni uğurla başa vurmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 aprel 2005-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarında işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqqında Əsasnamə»yə uyğun olaraq, indiyədək keçirilmiş 8 müsabiqə nəticəsində 750 nəfər vergi orqanlarında işlə təmin edilmişdir.